**Gülarəxanım Axundova**[57]

# MƏKTƏBLİLƏRİN MUSİQİ-ESTETİK ZÖVQLƏRİNİN FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Gənc nəslin bədii zövqü, fəal həyat mövqeyi, vətənpərvərlik və vətəndaşlıq hisslərinin tərbiyəsi – bütövlükdə estetik tərbiyə sisteminin vəzifəsidir. Musiqi tərbiyəsi estetik tərbiyənin bir hissəsi olub hərtərəfli harmonik şəxsiyyətin yetişdirilməsi işində böyük rol oynayır. Bu barədə prof. T. Kəngərli belə yazır: "Musiqi tərbiyəsinin məqsədi şagirdlərdə musiqili-estetik şüurun, ... estetik zövgün, tələbatların, meylliklərin və ideallarıın yaradılmasıdır..." (1, 218.). Beləliklə, musiqi tərbiyəsinin qarşıya qoyduğu əsas məsələ – gənc nəslin musiqini estetik baxımdan mənimsəyə bilməsi və onda yüksək bədii musiqi-estetik zövqün aşılanmasıdır.

İnsanın estetik zövqü şəxsiyyətin təşəkkülü dövründə uzun illər ərzində formalaşır. Uşağın estetik inkişafına təsir göstərən əsas amillər aşağıdakılardır:

1. Mühütün estetikası – bu problem bəşəriyyətin ən qlobal problemlərindən biri olan ətraf mühitin və təbiətin zənginliklərindən rasional istifadəsi məsələləri ilə bağlıdır.
2. Məişətin estetikası – bu əşyaların gözəlliyinin, harmoniyasının hissiyatıdır, onların məqsədəuyğun istifadəsi və məişətdə əndazalı yerləşdirilməsidir.
3. Davranışın və xarici görünüşün estetikası.

Musiqi müəlliminin işinin əsas və vacib hissəsini şagirdlərdə gözəl, incə estetik zövqün tərbiyəsi təşkil edir. Hər şeydən əvvəl müəllim özü yüksək estetik mədəniyyətə, artistizm, yumor hissinə malik olmalıdır. O, öz mənəvi təcrübəsini şagirdlərinə ötürməyi bacarmalıdır və öz davranışında inandırıcı və əzmli olmalı, özünü əldə saxlamağı və gərginliyi aradan qaldırmağı bacarmalıdır.

Bəs musiqi-estetik zövq nə deməkdir?

Gözəlliyi qavraya bilən insanın formalaşdırılması problmləri həmişə müxtəlif elm məktəblərinin və istiqamətlərin diqqəti mərkəzində olmuşdur. Öz traktatlarında qədim alimlər estetik şüurun və zövqün rasional və cismani tərəflərinin mütanasibliyi barəsində danışırdılar. Onlar zövqün ilkin ( emosional, duyğulu reaksiyalar) və sonradan əlavə (rasional, məntiqi) mülahizələrini ayırd edirdilər.

Estetika elminə dair lüğətlərdə biz "estetik zövq" kateqoriyasının tərifini görürük: estetik zövq – insanın həzz almaq və ya almamaq qabiliyyətidir ("xoşlanıram" və ya "xoşlanmıram"), müxtəlif estetik obyektləri differensial qavramaq, gerçəklikdə və incəsənətdə "gözəlliyi" eybəcərlikdən fərqləndirmək, estetik və qeyri-estetik məhfumları ayırd etmək, hadisələrdə faciəvi və komik cəhətləri aşkar etmək bacarığıdır. Bu tərifdən görünür ki, zövqə həmişə xas olan dəyərləndirmənin aksioloji (qiymətləndirici) aspekti qnoseoloji (idraki) aspektlə üst-üstə düşür. Lakin bədii və estetik zövq arasında fərqi dəqiqləşdirmək lazım bilirik. İncəsənət estetik varlığın bir növü olub təkcə estetik hadisə sırasına aid deyil. Gözəllik kriterisi incəsənətdə onun idraki, mənəvi, kommunikativ və funksional əhəmiyyətini bitirmir.

Estetik zövq bizim simpatiyaların və antipatiyaların, meylliklərimizin və rədd etdiklərimizin sistemi olaraq bizim dünyagörüşümüzü, mədəniyyət səviyyəmizi, dünyaya estetik yanaşmamızı əks etdirir. Buna görə də şəxsiyyətin zövqlərində onun şüurunun ideoloji istiqaməti və etiqadı aşkar görünür.

Qeyd etməliyik ki, həmçinin "muiqi zövqü" anlayışı da mövcuddur. Musiqi pedaqogikasında "zövq" anlayışı estetika elmindən çox-çox əvvəllər yaranmışdır. Musiqi sənəti idraki dəyərə malik olaraq və özündə ən yaxşını cəmləyərək, insanın zövqünün, şəxsi mədəniyyətinin və bütövlükdə cəmiyyətin mədəniyyətinin formalaşmasına təsir edir. Bundan əlavə, musiqi-estetik zövq musiqi əsərini əks etdirərək o əsərin yaradıcısının ideya istiqaməti ilə əlaqəyə girir və beləliklə musiqi əsəri dolayısı yolla musiqi-estetik zövqün təşəkkülünə ideoloji təsir göstərir.

Müasir elmi ədəbiyatda "musiqi-estetik zövq" kateqoriyasına fəlsəfi-sosioloji aspektdən ümuminin və fərdinin, obyektivliyin və subyektivliyin, rasionallığın və emosionallığın vəhdəti kimi baxılır. Pedaqoji və psixoloji baxımdan isə – dinləyicinin musiqi mədəniyyətinin əksi olduğu, formalaşdırıla bilən musiqinin gözəlliyini anlamaq, dəyərləndirmək və həzz almaq qabiliyyəti kimi.

Y.Əliyevin fikrincə "musiqi zövqü altında musiqinin gözəlliyindən həzz alma, onun məzmunundan həyacanlanma, musiqi sənətinin nümunələrini qiymətləndirmə, ən dəyərlilərə üstünlük vermə və eybəcərlərindən imtina etmə bacarığı başa düşülür" (2,12.). Başqa sözlə desək, musiqi zövqü estetik zövqün xüsusi bir komponentidir.

Beləliklə, musiqi-estetik zövqü altında biz insanların müxtəlif musiqi sənəti hadisələrinə differensial və adekvat şəkildə reaksiya vermə qabiliyyətini başa düşürük. Bu aşağıdakı amillər vasitəsilə baş verir: sensor (emosiyalar, hiss və duyğular), aksioloji (intuitiv fərziyələr, estetik dəyərləndirmələr) və prioritet (üstün meylliklər və tələbatlar).

İstənilən hadisənin estetik dəyərini müəyyənləşdirərkən subyekt bununla bir tərəfdən onu tam dəqiq-düzgün öyrənir, digər tərəfdən isə – özü və bütövlükdə cəmiyyət üçün onun əhəmiyyətini düzgün müəyyənləşdirir, bu hadisənin insanlara estetik həzz gətirməsini təstiq edir.

Estetik zövqün strukturunda üç başlanğıc mövcuddur: birincisi – estetik zövq öz mahiyyətinə görə estetik fəaliyyətin və dünyanın estetik şəkildə insan tərəfindən qavranılmasının özünəməxsus bir tənzimləyicisi kimi çıxış edir; ikincisi – zövq kamilliyin və qeyri-mükəmməlliyin kriterisi kimi çıxış edir; üçüncüsü – zövq estetik simpatiyalarının, meylliklərin və antipatiyaların sistemi olaraq estetik tələbatları konkretləşdirir və müəyyənləşdirir.

Lakin musiqi-estetik zövq eyni tərkibli anlayış deyil. Çünki müsiqi zövqünün emosional və məntiqi tərəfləri bir-birilə sıx bağlı və qarşılıqlı əlaqəlidir. Buna görə musiqi-estetik zövq – varlığın Gözəllik və yaxud Eybəcərlilik prizmasından qiymətləndirilməsi meyarıdır. Estetik zövq – estetik normaların özünəməxsus sahəsidir ki, bunların əsasında bədii əsərin qiymətləndirilməsi baş verir. Lakin şəxsiyyətin inkişaf etmiş estetik şüuru hər şeydən əvvəl özünə inkişaf etmiş estetik duyğuları (estetik qavramanı, emosiyaları, həyacanı və estetik zövqün cismani tərəfini) və estetik inkişaf etmiş əqli və yaxud intellekti (estetik zövqün rasional hissəsi, estetik idealı, estetik tələbatları, baxışları

[57] **Dos. , ADPU**

və əqidəni) daxil edir.

Zövq meyllikləri sosial kontekstdən asılıdır: istənilən bir fərdin zövqü cəmiyyət tərəfindən qəbul edilmiş estetik qiymətləndirməni ifadə edir. Keçmişin bir çox görkəmli musiqişünas-alimləri, musiqiçiləri, pedaqoqları və ictimai xadimləri xalqın daha geniş kütlələrini musiqi sənətinin şedevrlərinin mənimsənilməsinə, qavranılmasına cəlb etməyə cəhdlər göstərmişlər, bunula bərabər musiqidə keyfiyyətsiz və aşağı səviyyəli zövqün izharına qarşı çıxış edirdilər.

Musiqi-estetik zövq insanın gözəlliyi idrak etmək qabiliyyətində və incəsənət əsərlərinin dəyərləndirməsində təzahür edir. Özüdə bu zaman insanların estetik meylliklərinin əsası kimi abstrakt, sarsılmaz zövq normalarının mövcudluğu nəzərə alınır. Zövqə hər zaman emosional və rasional komponentlərin qarşılıqlı əlaqəsində baxılmışdır, özüdə müxtəlif dövrlərdə bu və ya digər komponent növbə ilə əsas yeri tuturdu. Bir əşya özü-özlüyündə bəyənildikdə zövq estetik emosiyalarda və yaxud zövqün subyektiv və obyektiv mülahizələrində təzahür etməyə qadirdir.

Musiqi zövqünün əsasında uşağın ilkin musiqi meyllikləri durur ki, bunların təzahürü və inkişafı artıq körpəlik dövründə baş verir. Lakin məktəbəqədər dövrdə söhbət yalnız musiqi zövqünün ilkin zəmininin yaradılmasından gedə bilər. Belə ki bu dövrdə uşaq musiqiyə qarşı emosional-qymətləndirici münasibəti göstəməyə çalışır. Zövq meylliklərin inkişafının göstəricisi kimi sevimli əsərlərin mövcud olması və onlar barəsində fikir söyləmə cəhdləri çıxış edir.

Musiqi zövqünün formalaşdırılması musiqi şüurunun komponentləri ilə bağlıdır: emosiyalar, hisslər, maraqlar, tələbatlar və qiymətləndirmələr. Musiqi zövqünün formalaşdırılması – musiqini dinlədikdə və onun qavranılmasından sonra musiqi barəsində emosional-duyğulu obrazların şüurda yaranması prosesidir. Həmçinin təsəvvürləri nəiki musiqinin səslənməsi anında və hətta bir qədər ondan sonrakı müddətdə də yaranan emosional qavrama kimi də adlandırmaq olar. Rasional idrak nöqteyi nəzərindən musiqi zövqünün əsasında abstrakt təfəkkür durur ki, onu duyğu və hisslərin hüdudlarından kənara çıxarır.

Musiqi-estetik zövqü xalq musiqisinin, musiqi klassikasının və müasir musiqinin ən yaxşı əsərlərinə qarşı fəal marağ, musiqi sənəti əsərlərindən həzz almaq bacarığı ilə xarakterizə olunur. Musiqi zövqü həmçinin musiqi əsərlərinə qarşı öz fikirlərini, münasibətini izah etmək bacarığı ilə də müəyyənləşdirilməlidir ki, bu münasibət musiqinin interpretasiyasında öz nöqteyi nəzərinin təhlili və əsaslandırılması, musiqi sənətinin estetik dəyəri barəsində mühakimə aparma bacarığını nəzərdə tutur.

Məktəblilərdə musiqi zövqünün formalaşdırılması şüurlu şəkildə musiqi əsərinin dəyərli tərəfləri və çatışmamzlıqları barəsində öz qiymətləndirici fikirlərini əsaslandırmaqdan başlanmalıdır. Şagirdlərin musiqi əsərlərinə qarşı qiymətləndirici mövqeyi onların maraq səviyyələrindən, musiqini dinləmək istəyi və tələbatlarından çox asılıdır. Öz qiymətləndirici mövqeyində uşaq "qiymətləndirmə etalonları"na söykənə bilər: intonasiya təcrübəsindən irəli gələn etalon, emosionallıqla bağlı etalon, estetik mülahizələr etalonu, maddi etalon və s.

Özü də musiqininin qiymətləndirməsinin mövqeyi öz musiqi təəssüratlarının dərk edilməsi prosesində dəyişə bilər. Buna görə də musiqi dərslərində şagirdləri yüksək bədii səviyyəli əsərlərlə tanış etmək lazımdır ki, bunula onlarda yüksək bədii və musiqi zövqünü formalaşdırmış və inkişaf etdirmiş oluruq. Deməli "musiqi-estetik zövqü" anlayışı musiqili-qiymətləndirici münasibət ilə müəyyənləşdirilir ki, bu müxtəlif dövrlərin və üslubların musiqi əsərlərinə qarşı dayanıqlı şəxsi meylliklərdə özünü büruzə verir.

Kiçik, orta və yuxarı sinif məktəblilərində musiqi zövqünün əsasını qiymətləndirici qavrama, musiqi bilikləri və intonasiya təcrübəsi, həmçinin musiqili-qiymətləndirici fəaliyyət təşkil edir. Həm kiçik, həm orta, həm də yuxarı sinif şagirdlərində musiqi zövqünün strukturunun əsasını aşağıda adları çəkilən komponentlər təşkil edir:

- emosional və intellektual qavramada özünü göstərən maraq;
- dinləmə təcrübəsindən irəli gələn və musiqi-estetik ideala istiqamətlənən bədii cəhətdən əsaslandırılmış seçim;
- zövq meylliklərini müşayiət edən və həyacan təcrübəsinin mövcudluğundan xəbər verən musiqi-estetik həzz;
- düşünülmüş mənəvi mövqe və estetik dəyərlərlə xarakterizə olunan zövq meylliklərin mənəvi istiqamətləndirilməsi.

Zövq təzahürünün əsasını uşağın musiqi meylliklərinin emosional-estetik və bədii cəhətdən doğruldulmuş ifadəsi təşkil edir. Şagirdlərdə musiqi-estetik idealları barəsində möhkəm və dayanıqlı təsəvvürlərin yaradılması böyüməkdə olan şəxsiyyətin mənəvi, bədii və mədəni inkişafına imkan verir. İnkişaf etmiş musiqi zövqü insanın mədəniyyət səviyyəsinin göstəricisi kimi çıxış edərək, gələcəkdə insanın "həyat stilini" (yaşam tərzini), onun mənəvi qiymətləndirici istiqaməti sistemini formalaşdırır. Musiqili-zövqlü meylliklərin məzmunu kimi emosional-müsbət qavramanın və musiqi klassik nümunələrinin adekvat qiymətləndirilməsinin nəticələri çıxış edir ki, bunlar əsaslandırılmış estetik mülahizələrdə ifadə olunur.

Qeyd etdiyimiz kimi musiqi tərbiyəsinin qarşıya qoyduğu əsas məsələ – gənclərin musiqini estetik cəhətdən mənimsəyə bilməsi və onlarda yüksək bədii zövqün formalaşdırılmasıdır. Gənclərdə hələ nə həyat təcrübəsi, nə də estetik zövq mövcud deyildir. Onlar yaşlı nəslə nisbətən incəsənətin həyatla əlaqəsini daha bəsit, daha primitiv şəkildə qəbul edir. Məhz buna görə də onların düzgün şəkildə istiqamətləndiriməsi, yüksək ideallara yiyələnə bilməsi işi olduqca vacib sayılır. Hal-hazırda bu iş vacib sosial problem kimi dəyərləndirilir. Ümumtəhsil məktəblərində kütləvi musiqi tərbiyəsinin əsas məqsədi, təkcə musiqinin övrənilməsi deyil, onun vasitəsilə dühalana bilməsi və ən başlıcası da mənəviyyata yiyələnməsindən ibarətdir. Bir çox ümumtəhsil məktəblərində yaranmış musiqi-estetik tərbiyə sistemi təəssüf ki, qoyulmuş problemə dair yaxşı nəticələr vermir, çünki tədris bir çox hallarda yenə də köhnə üsullara əsaslanır. Lakin qabaqcıl müəllimlər ənənəvi və innovasiyalı metodları birləşdirərək yaxşı nailiyyətlər əldə edirlər. Dövlətimiz tərəfindən təhsildə aparılan islahatlar bucür yanaşmanın bütün məktəblərdə həyata keçirilməsini tələb edir. Bu günkü məktəblini tərbiyələndirməklə biz gələcəyimizi formalaşdırmış oluruq.

**ƏDƏBİYYAT:**

1. Т.Кенгерлинская. "Интегративный принцип построения системы специаль-ной педагогической и исполнительской подготовки студентов", Баку, 2007
2. Ю.Б.Алиев "Настольная книга школьного учителя-музыканта", Москва, 2000

3. O.Rəcəbov, G.Məmmədova. "Pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi tədrisinin metodikası", Bakı, 2009
4. J.Qədimova. "Musiqinin tədrisi metodikası", Bakı, 2007
5. O.Rəcəbov.F.Hidayyətova. Ümumtəhsil məktəblərində musiqinin tədrisi və tərbiyəsi metodikası. Bakı, 2013

**Açar sözlər:** estetik tərbiyə, musiqi zövqü, estetik dəyərləndirmə

**Ключевые слова:** эстетическое воспитание, музыкальный вкус, эстетическое оценивание

**Key words:** aesthetic education, musical taste, aesthetic evaluation

**РЕЗЮМЕ:**

**«Вопросы формирования музыкально-эстетического вкуса школьников»**

Формирование музыкального вкуса школьников следует начинать с умения осмысленно обосновать свои оценочные суждения о сильных и слабых сторонах музыкального произведения. Оценочная позиция школьников о музыкальном произведении в значительной степени зависит от уровня их интересов, желания и потребности слушать музыку.

**SUMMARU:**

**"The formation of musical and aesthetic taste of students"**

The formation of the musical taste of schoolchildren should begin with the ability to meaningfully substantiate their value judgments about the strengths and weaknesses of a musical work. The assessment position of schoolchildren about a piece of music largely depends on the level of their interests, desire and need to listen to music.

RƏYÇİ: dos. E.Vəliyeva